DOI: https://doi.org/10.36719/2706-6185/21/47-50

**Ayxan Zeynalov**
Bakı Dövlət Universiteti
magistrant
ayxan.zeynalov.00@mail.ru

# MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASINDA XARİCİ İNVESTİSİYA QOYULUŞLARININ PRİORİTET İSTİQAMƏTLƏRİ

**Xülasə**

Müasir dövrdə yalnız daxili imkanlarla iqtisadi inkişafa nail olmaq mümkünsüzdür. Ölkəyə xarici investisiyanın cəlb edilməsi iqtisadiyyatın inkişafında çox vacibdir. Son illərin təcrübəsi göstərir ki, Azərbaycanda neft gəlirlərinin artması qeyri-neft sahələrinin inkişaf etdirilməsi sahəsində uzunmüddətli tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Qeyri-neft sahəsində investisiya qoyuluşlarının həcmi artaraq iqtisadiyyatın canlanmasına səbəb olmuşdur. Uğurla həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar nəticəsində milli iqtisadiyyatımızda olduqca mühüm dəyişiklər baş vermişdir.

Ölkə iqtisadiyyatının inkişaf etdirilməsində investisyaların cəlb edilməsi və onlardan səmərəli istifadə olunması vacib amillərdən biridir. Deməli, Azərbaycanda investisiya cəlb edilməsi üzrə müəyyən bir modelin formalaşdırılması və xarici investisiya qoyuluşlarının prioritet istiqamətlərinin müəyənləşdirilməsi aktual məsələyə çevrilmişdir.

***Açar sözlər:*** *Azərbaycan iqtisadiyyatı, xarici investisiya, prioritet istiqamətlər, sahibkarlıq, iqtisadiyyat, vergi siyasəti, rüsum, gömrük*

**Aykhan Zeynalov**
Baku State University
master student
ayxan.zeynalov.00@mail.ru

## Priority directions of foreign investments in the formation of the national economy

**Abstract**

In modern times, it is impossible to achieve economic development only with domestic opportunities. Attracting foreign investment to the country is very important in the development of the economy. The experience of recent years shows that the increase in oil revenues in Azerbaijan has created conditions for the implementation of long-term measures in the field of development of non-oil fields. The volume of investments in the non-oil sector has increased and led to the revival of the economy. As a result of successfully implemented large-scale socio-economic reforms, significant changes have taken place in our national economy.

Attraction of investments and their effective use is one of the important factors in the development of the country's economy. So, the formation of a certain model of attracting investment in Azerbaijan and the definition of priority directions of foreign investment has become an urgent issue.

***Keywords:*** *economy of Azerbaijan, foreign investment, priority directions, entrepreneurship, economy, tax policy, duty, customs*

## Giriş

Hər bir ölkədə investisiya siyasətini, onun prioritet istiqamətlərini, o cümlədən regionların investisiya təminatını dövlət müəyyənləşdirir və stimullaşdırır. Bütün iqtisadi münasibətlər tənzimləndiyi kimi investisiya fəaliyyəti də tənzimlənir. Bir çox hallarda xarici investisiyanın cəlb edilməsi investisiya qoyuluşlarının maliyyə mənbələrinin artmasına səbəb olur. Bununla yanaşı xarici investisiya axınları həm də yeni texnologiyanın, idarəetmə metodlarının, istehsalın təşkili sahəsində yeni biliklərin ölkəyə cəlb edilməsi üsulu kimi çıxış edir. Qeyd etməliyik ki, əlverişli

investisiya mühitinə dövlətin sahibkarlığı stimullaşdırılması siyasətinin stabil olması, güzəştli vergi rejiminin mövcudluğu, etibarlı operativ bank sistemi, informasiya texnologiyası və infrastruktur vasitələri ilə təminatlılıq dərəcəsi, süni yoxlama və müdaxilənin yoxluğu, göstərilməsi üçün firma şəbəkəsinin inkişaf faktorları, intelektual mülkiyyətin möhkəm müdafiə sistemi, təsərrüfat fəaliyyəti prosedurasının sadələşdirilməsi və yaradıcılıq azadlığı müsbət təsir göstərir (Əzizova, 2012: 19).

Bazar iqtisadiyyatı şəraitində xarici investisiyaların cəlb olunması, ilk növbədə dünya bazarında Azərbaycan müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi, ixracın quruluşunun təkmilləşdirilməsi, idxalın quruluşuna daha çevik yanaşması və bu istiqamətdə dövlət tərəfindən mühüm tədbirlərin həyata keçirilmə zəruriliyi müəyyən edilir. Çünki məhz dövlətin yeritdiyi iqtisadi siyasət iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində mühüm rolu olan investisiya qoyuluşlarının başlıca prioritet istiqamətlərini müəyyən edir.

Azərbaycan iqtisadiyyatına xarici investisiyanın cəlb olunması 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" adlanan ARDNŞ ilə bir sıra xarici ölkələrin neft kompaniyaları arasında bağlanmış müqavilələrdən sonra başlamış və bu proses getdikcə geniş vüsət almışdır. Bu hər şeydən əvvəl Azərbaycanda uğurla həyata keçirilən daxili və xarici siyasətin nəticəsində bərqərar olmuş sabitlik xarici sərmayədarların respublikamıza marağını getdikcə artırmışdır. Azərbaycan Respublikasının milli iqtisadiyyata xarici sərmayələrin cəlb olunması bir tərəfdən xarici iqtisadi siyasətin yenidən qurulmasının və eləcə də ölkədə gedən bütöv bir iqtisadi sistemin – radikal iqtisadi islahatların, struktur dəyişikliklərinin həyata keçirilməsinin başlıca istiqamətlərini təşkil edir.

Xarici investisiya fəaliyyətini həyata keçirmək istəyən şirkət müxtəlif məhdudiyyətlərlə qarşılaşa bilər. Ən geniş yayılmış məhdudiyyət ölkəyə gətirilən bəzi əmtələrə (texnologiya və s.) qoyulan vergi və rüsumlardır. Ona görə də belə məhdudiyyətlərin təsirinin yüngülləşdirilməsi məqsədi ilə müvafiq beynəlxalq təşkilatlar mütamadi olaraq, yaranmış şəraitə adekvat tənzimləyici tədbirlər hazırlayırlar. Məs., müasir dövrdə Azərbaycan Respublikasında gömrük orqanlarının fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, prosedurlarının daha da sadələşdirilməsi və şəffaflaşdırılması məqsədilə Beynəlxalq Valyuta Fondu, Ümumdünya Gömrük Təşkilatı ilə birgə proqram həyata keçirilməkdədir. Eyni zamanda daxili bazarda təkmil rəqabət mühitinin inkişaf etdirilməsi, təbii inhisarçıların tariflərinin, habelə dövlət tərəfindən müəyyənləşdirilən qiymətlərin müntəzəm şəkildə tənzimlənməsi məqsədilə ölkə Prezidentinin qərarına əsasən və Nazirlər Kabinetinin 31 yanvar 2002-cil tarixli qərarı ilə "Azərbaycan Respublikasının Tarif Şurası" yaradılmışdır (İsayev, 2011: 64).

Milli iqtisadiyyata investisiyaların cəlb olunması üçün xarici şirkətlər və beynəlxalq təşkilatlarla səmərəli və davamlı investisiya əməkdaşlığı üçün lazım olan hüquqi, institutsional və iqtisadi mühitin formalaşdırılması hər bir hökümətin qarşısında duran həlli vacib məsələlərindən hesab olunur. Bu məqsədlə dövlət müvafiq hüquqi və normativ baza formalaşdırır, institutlar yaradır və rəqabətli biznes mühitinə dəstək verir. Azərbaycan Respublikasında xarici investorlara verilən dövlət təminatları ilk növbədə milli qanunvericiliklə tənzimlənir. Bu məqsədlə hələ 15 yanvar 1992-ci ildə "Xarici investisiyaların qorunması haqqında" və 13 yanvar 1995-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur (Namazova, 2014: 158). Lakin, Azərbaycan Respublikasında xarici investorlara verilən təminatlar milli qanunvericiliklə yanaşı ölkəmizin ratifikasiya etdiyi çoxtərəfli müqavilələrlə də tənzimlənir. Xarici dövlətlərlə imzalanmış qarşılıqlı müdafiə və təşviqə dair ikitərəfli sazişlər də xarici investorların əlavə müdafiəsi xarakteri daşıyır. Hazırda Azərbaycan Respublikası ilə dünyanın müxtəlif ölkələri arasında 30-dək bu tip müqavilələr imzalanmışdır, Azərbaycan Respublikası hökuməti ilə dünyanın 53 ölkəsinin hökümətləri arasında müştərək və ya hökümətlərarası dövlət komissiyası yaradılmışdır. MDB dövlətləri çərçivəsində hətta ikitərəfli müqavilələrdən savayı kapital qoyuluşlarının qarşılıqlı müdafisəi və stimullaşdırılmasına dair 2 çoxtərəli konvesiya da imzalanmışdır. Bu sənədlərə 24 dekabr 1993-cü ildən qüvvədə olan investisiya sahəsində əməkdaşlığa dair sazişi və 28 mart 1997-ci ildə imzalanmış investorların müdafiəsi barədə konvensiyanı aid etmək olar (Zeynalov, 2012: 48).

Xarici investisiya qoyuluşlarının cəlb olunması üzrə dövlətin yerinə yetirdiyi tədbirlər ilkin olaraq əlverişli investisiya mühitinin formalaşdırılmasına, innovasiya potensialının artırılmasına və investisiya risklərinin minimuma endirilməsinə istiqamətləndirilməlidir.

Qeyd etmək lazımdır ki, qlobal miqyasda əlverişli investisiya mühitinin formalaşdırılması üçün aşağıdakı istiqamətlərdə tədbirlər reallaşdırılmalıdır:

- investisiya qoyuluşları üçün əlverişli institusional mühitin formalaşdırılması;
- investisiya fəaliyyəti üçün yüksək tələblərə cavab verən infrastrukturun formalaşdırılması;
- xarici investisiya qoyuluşlarının vergi stimullaşdırılması sisteminin mexanizminin formalaşdırılması;
- xarici investisiya qoyuluşlarının cəlb olunması və dəstəklənməsinin maliyyə mexanizminin formalaşdırılması;
- investisiya fəaliyyəti əsasında istehsal edilmiş məhsula tələbin artırılması;
- xarici sərmayə əsasında fəaliyyət göstərən müəssisənin təchizatçılarla təmin olunması;
- xarici investisiya qoyuluşları üçün cəlbedici tarif şərtlərinin formalaşdırılması;
- investisiya layihələrinin ixtisaslı kadrlarla təmin edilməsi.

Cənab Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" xarici investisiya qoyuluşlarının da cəlb edilməsinin prioritet qəbul edilmişdir. 2025-ci ilədək olan uzunmüddətli baxışda investisiya mühitinin hüquqi tənzimlənməsi məsələsinə geniş yer verilmiş, bu sferada mövcud olan əngəllərin aradan qaldırılması əhəmiyyətlitədbirlər görüləcəkdir. Belə ki, ölkəmizdə yüksək texnologiyalara, bazarlara və maliyyə resurslarına bərabərhüquqlu çıxış imkanlarını təmin edən rəqabətqabiliyyətli mühiti formalaşdırılacaqdır (5).

Azərbaycan Respublikasının regional qovşaq kimi mövqeyinin möhkəmləndirilməsi üçün infrastruktur sahələrinə irihəcmli investisiya qoyuluşlarının cəlb edilməsi davam etdiriləcəkdir. 2025-ci ildə ölkə iqtisadiyyatı dəmir yollarının Gürcüstan, Türkiyə və İranın dəmiryol şəbəkəsi vasitəsi ilə Bakı-Tbilisi-Qars və Astara-Astara dəmiryol layihələri vasitəsi ilə birləşdirilməsindən, eləcə də Xəzər dənizi hövzəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilməsindən faydalanacaqdır (Əhmədov, Hüseyn, 2011: 123). Ölkəmizin şaxələndirilmiş nəqliyyat potensialı ölkədən ixracatın artırılması üçün şərait yaradacaq, ümumilikdə isə iqtisadi xərclərə qənaət olunmasına şərait yaradacaqdır. Bununla yanaşı, inkişaf etdirilmiş nəqliyyat infrastrukturu ölkənin bütün regionlarının daha yaxşı inteqrasiyasına zəmin formalaşdırmaqla, bölgələrdə biznesin inkişaf etməsinə, xarici investisiyaların cəlb olunmasına əlavə imkanlar açacaqdır.

Ticarət əlaqələrinin asanlaşdırılması və keyfiyyətin dəqiq dəyərləndirilməsi üçün yerli müəssisələrdə qlobal standartlar və sertifikatlar tətbiq olunacaqdır. 2025-ci ilədək qlobal standartlara uyğunlaşma Azərbaycandan ixrac olunan malları rəqabət qabiliyyətli hala gətirəcəkdir. Beynəlxalq sertifikatlardan daha çox istifadə etmək etibarlı keyfiyyət ölçüsü formalaşdıraraq yerli istehlak səviyyəsini artıracaqdır. Azərbaycan Respubliasına coğrafi nöqteyi-nəzərdən ən yaxın iki regional bazarda - Avrasiya İttifaqı və Avropa İttifaqında ÜTT qaydaları əsas qəbul edildiyindən, ölkəmizdə də bu qaydalara müvafiq əmtəə və xidmətlərlə qeyri-neft ixracatının həcmi yüksəldiləcəkdir. Yerli müəssisələr öz əmtəə və xidmətlərin keyfiyyətini artırmaqla yerli istehlakçıların davamlı olaraq yüksələn keyfiyyət tələbatına cavab verəcəkdir. Bunun nəticəsində "Made in Azerbaijan" brendi qlobal bazarlarda keyfiyyət göstəricisinə çevriləcəkdir. "Made in Azerbaijan" brendinin dünyada tanıdılması yönündə yerinə yetiriləcək işlərin effektivliyini yüksəltmək məqsədi ilə ölkədə istehsal edilən məhsulların və bu məhsulların istehsalçıları haqqında informasiyaları özündə birləşdirən internet portalı formalaşdırılacaqdır. Həmin internet portalında informasiyaların üç dildə yerləşdirilməsi istifadəçi əhatəsini artırmaqla, yerli məhsulların tanıdılması nöqteyindən daha da səmərəli olacaqdır. Bunun nəticəsində, istehsalçı-istehlakçı arasında münasibətlər asanlaşacaq, rəqabətədavamlı milli məhsulların ixracatının həcmini yüksəldəcəkdir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı prioritet kimi qəbul olunmuşdur. 2012-ci ildə qoyulmuş investisiyaların 11,7 milyard manatı, yəni bütün investisiyaların 76 faizi məhz bu istiqamətdə istifadə edilmişdir. Azərbaycan Respublikasının investisiya siyasəti ölkədə bütün təsərrüfat subyektlərinə əlverişli şəraitin yaradılması istiqamətində məqsədyönlü kompleks tədbirlərdən ibarətdir. Bu tədbirlər iqtisadiyyatın çoxşaxəli və hərtərəfli inkişafına, investisiya aktivliyinin və istehsalın səmərəliliyinin artırılmasına, eləcə də sosial məsələlərin həllinə yönəlmişdir (7). Belə siyasi kursun əsas məqsədi

Azərbaycanın rəqabətədavamlı iqtisadiyyatının inkişafını, müvafiq strateji planının həyata keçirilməsini, ölkə iqtisadiyyatının inkişaf etmiş ölkələr səviyyəsinə çıxarılmasını və dayanıqlılığını təmin etməkdən ibarətdir. Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun hərtərəfli inkişaf etdirilməsi, emal sənayesinin dominantlığına nail olunması, yeni emal və istehsal müəssisələrinin işə salınması həm respublikanın daxili tələbatlarını maksimum ödəməyə, həm də ixrac potensialını yaratmağa xidmət edir. Bu səviyyə isə öz növbəsində qeyri-neft sektorunda hərtərəfli inkişafa və mövcud potensialın dövriyyəyə cəlb edilməsi üçün, o cümlədən texniki və texnoloji biliklərə yüksək tələbi yaratmaqla elm və təhsilin inkişafı üçün geniş imkanlar açır (Əliyev, 2008: 49).

İnvestisiya əməkdaşlığının yaradılmasında "yeni investisiya formalarına" xüsusi fikir verilməlidir. Onlar praktiki olaraq texniki kömək şəklində kapitalın ixracı formasının bir növüdür. Belə formalara qarışıq sahibkarlıq, hər cür mümkün ola bilən texniki köməyin növləri kimi "xidmət" kontraktların bağlanması və s. aid etmək olar. Son nəticədə xarici kapital milli iqtisadiyyatın inkişafına, onun elmi-texniki səviyyəsinə təsir göstərməsinə baxmayaraq, "yeni investisiya formalarının" tətbiqinə qəbul edən ölkələr tərəfindən çox ehtiyatla yanaşılmalıdır. Çünki o, gözlənilməz nəticələrə gətirib çıxara bilər (Bağırov, 2015: 159-163).

Azərbaycanda investisiya əməkdaşlığının potensial imkanlarının səmərəliliyi mütərəqqi forma olan lizinqdən istifadə edildikdə daha geniş açıla bilər. Son illərdə bu forma inkişaf etmiş ölkələrdə geniş yayılmışdır. O, həmin ölkələrdə investisiya fəaliyyətinin əsas mexanizmlərindən birinə çevrilmişdir. "Yeni investisiya formalarının" dünyada tətbiqi təcrübəsinin çox cəhətliliyinin öyrənilməsi respublika iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiya prosesini gücləndirəcəkdir.

## Nəticə

Azərbaycanda xarici investisiya qoyuluşlarının reallaşdırılması və formalaşmasında dövlətin rolu investisiya fəaliyyətinin həyata keçirlməsi üçün əlverişli imkan və münbit şəraitin təmin edilməsindən ibarətdir. İnvestisiya qoyuluşlarının reallaşması da öz növbəsində ümumilikdə dövlətin uğurlu iqtisadi fəaliyyətinin nəticəsi hesab olunur. Bu səbəbdən də qeyd etmək lazımdır ki, dövlətin iqtisadi, sosial və elmi-texniki inkişafına istiqamətləndirilmiş investisiya siyasəti hər bir zaman ölkənin əsas nəzər nöqtəsində saxlanılmalıdır.

Eyni zamanda ölkəmizin müasir investisiya siyasətinin əsas xüsusiyyəti iqtisadiyyatın neftdən asılılığının tamamilə azaldılması və neftdən gələn gəlirdən qeyri-neft sektoruna investisiya şəklində yönləndirilməsi yolu ilə bu sektorun yüksək inkişafına nail olmaqdan ibarətdir. Buna isə mövcud istehsal obyektlərinə innovasion investisiyalar yönəltməklə onların istehsal gücünü artırmaq və elmi texniki tərəqqinin son nailiyyətlərindən istifadə etməklə yeni istehsal müəssisələri yaratmaqla nail olmaq mümkündür.

## Ədəbiyyat

1. Əzizova, G. (2012). "Dövlətin investisiya-innovasiya siyasəti". Bakı.
2. İsayev, S. (2011). "İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi". Bakı.
3. Namazova, C. (2014). "İnvestisiyalar". Bakı.
4. Zeynalov, V. (2012). "Azərbaycanda investisiya siyasəti". Bakı.
5. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" 6 dekabr 2016-cı il.
6. Əhmədov, M., Hüseyn, A. (2011). Dövlətin iqtisadi siyasəti. Bakı.
7. https://president.az/az/articles/view/16373
8. Əliyev, Q. (2008). "İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi". Bakı.
9. Bağırov, F. (2015). "Xarici investisiyalardan səmərəli istifadənin prioritetləri" Azərbaycanın aqrar elmi jurnalı, №3 (238). Bakı.

Göndərilib: 22.01.2023 Qəbul edilib: 12.03.2023